**Azərbaycan.** - 2024.- 12 noyabr. - № 248. - S. 11.

# Dünya mediası COP29-dan yazır

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edir. COP29-un Bakıda keçirilməsi Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzunun günbəgün artdığının sübutudur. Azərbaycanın belə nəhəng tədbirləri yüksək səviyyədə təşkil etmək üçün müasir infrastruktura və təhlükəsizliyə malik olması dünya ictimaiyyətinə məlumdur.

Ölkəmizin COP29-a da uğurla evsahibliyi dünya mediasının diqqət mərkəzindədir. Belə ki, bir sıra beynəlxalq mətbuatda yayımlanan məqalələr və reportajlarda qeyd olunur ki, Bakıda keçirilən tədbir qlobal iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verəcək xüsusi hadisələr və təşəbbüslərlə yadda qalacaq. Onlardan bəzilərini diqqətə çatdırırıq.

Türkiyənin "TRT Haber" telekanalı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda işə başlaması ilə bağlı reportaj hazırlayıb. Telekanal iqlim dəyişikliyi ilə mübarizə üzrə konkret addımları müzakirə etmək üçün dünyanın hər yerindən dövlət və hökumət başçılarının, alimlərin və ekoloji fəalların Bakıda toplaşdığını qeyd edib. "Tarixi COP29-un gündəliyinə atmosfer emissiyalarının qlobal şəkildə azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma addımları və "iqlim ədalətinin" təmin edilməsi kimi mühüm mövzular daxildir. Ekoloji böhrana qarşı müqavimət göstərməyə getdikcə daha az vaxt qalıb, ona görə də beynəlxalq ictimaiyyət Bakıdakı müzakirələrdən maksimum nəticə gözləyir", - deyə materialda qeyd olunub.

Telekanal "həyəcan təbili çalan" alimlərin qiymətləndirmələrinə diqqət çəkir: "Əgər istixana qazı tullantılarını azaltmaq mümkün olmasa, 2030-cu ilə qədər qlobal istiləşmənin sürəti 1,5 dərəcə Selsini keçə bilər ki, bu da kataklizmlərə səbəb olacaq". Diqqətə çatdırılır ki, COP29 region ölkələri üçün də önəmlidir. Azərbaycan milli iqtisadiyyatda islahatların aparılması, qeyri-neft sektorunun inkişafı, bərpaolunan enerji mənbələrinə investisiyaların artırılması istiqamətində qətiyyətli addımlar atır. Bakı enerji transformasiyası və ətraf mühitin davamlılığı məsələsində region ölkələri üçün nümunə olmağa çalışır.

"TRT Haber" Bakını "iqlim böhranı ilə mübarizənin ümumi məqsədi ətrafında dünyanı birləşdirmək üçün ideal platforma" adlandırıb. "Azərbaycanda COP29-un nəticələri dünya ictimaiyyətinə dövlətlərin iqlim böhranına qarşı real birgə mübarizəyə başlamaq əzmində olub-olmadığını nümayiş etdirəcək", -deyə sonda xəbər kanalı qeyd edib.

Qardaş ölkənin "Anadolu" Xəbər Agentliyi, "TRT Avaz", "Star" qəzeti və digər mətbu orqanlarında dərc edilən məqalələrdə Azərbaycanın COP29-un təşkili istiqamətində səyləri, Türkiyənin ətraf mühitin mühafizəsi sahəsində prioritetləri barədə məlumat verilib. Qeyd edilib ki, "iqlim maliyyələşdirilməsi" Bakıda keçiriləcək qlobal müzakirələrin gündəliyində prioritet məsələ olacaq.

Dünyaca məşhur "Euronews" kanalı hazırladığı süjeti "Bakıda COP29: İnkişaf etməkdə olan ölkələr üçün maliyyələşdirmə və özəl sektor" başlığı altında təqdim edib. Qeyd edilib ki, dünyanın hər yerindən gələn nümayəndələr qlobal temperaturun yüksəlməsinin qarşısını almaq yollarını tapmaq və Paris Sazişi çərçivəsində verilən vədləri yerinə yetirmək ümidi ilə Azərbaycan paytaxtında toplaşıblar. Hazırkı sammit "maliyyə COP-u" adlandırılır, çünki 15 ildə ilk dəfə olaraq inkişaf etməkdə olan ölkələr üçün iqlim fəaliyyətinə dəstək məqsədilə maliyyələşdirmənin həcmi və strukturu araşdırılacaq.

Süjetdə qeyd edilib ki, ölkələr həmçinin atmosferə zərərli emissiyaları məhdudlaşdırmaq üçün daha effektiv milli planların işlənib hazırlanması üçün zəmin yaratmağa təşviq edilir. Ambisiyaları fəaliyyətə çevirmək əsas prioritet olaraq qalır. Bəs bu məqsədə necə nail olmaq olar? Bu məsələ ilə bağlı COP29-un prezidenti Muxtar Babayev "Euronews" telekanalına deyib: "Biz bütün ölkələrin səylərini birləşdirməliyik, çünki yalnız konsolidasiya, bütün iştirakçıların yaxşı motivasiyası ilə uğur qazanmaq şansımız var. Hesab edirəm ki, Bakıda keçirilən tədbirin əsas rolu Azərbaycan üçün, COP29 üçün əsas rolu inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında, cənubla şimal arasında, şərqlə qərb arasında əlaqə yaratmaqdır".

O da əlavə edilib ki, COP29-un təşkilatçıları hesab edirlər ki, dayanıqlı məqsədlərə nail olmaq üçün təkcə iqlimin maliyyələşdirilməsinə diqqət yetirmək deyil, həm də özəl sektoru buna fəal şəkildə cəlb etmək lazımdır.

İtaliyanın kütləvi informasiya vasitələri də Bakının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına dair məqalələr dərc edib. ANSA agentliyinin və "il Manifesto", "Meteo Giornale", "Editoriale Domani", "Avvenire", "Upday" kimi saytların yaydığı materiallarda COP29-un əhəmiyyətindən bəhs olunub.

Qeyd edilib ki, COP29 iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş siyasətlərin müzakirəsi və həyata keçirilməsi üçün əvəzsiz platformadır. Bakı konfransının iştirakçıları iki həftə ərzində qlobal dekarbonizasiya hədəfi üçün yeni maliyyə resursları barədə müzakirələr aparacaqlar. COP29-un əsas məqsədləri sırasında istixana qazlarının emissiyalarının azaldılması, qlobal istiləşmənin dramatik təsirlərinə uyğunlaşmaqda ən həssas ölkələrə dəstək olmaq üçün yeni maliyyələşdirmə mexanizmlərinin yaradılması var. Konfrans bir çox bölgədə təbii fəlakətlərə təkan verən qlobal temperaturun həyəcanverici artımına cavab vermək üçün unikal fürsət kimi qiymətləndirilib.

Dərc edilən yazılarda BMT-nin baş katibi Antonio Quterreşin bu yaxınlarda qlobal istiləşmə və iqlim dəyişikliyi ilə bağlı dərhal hərəkətə keçmək üçün yeni çağırış etdiyi vurğulanıb, ətraf mühit təşkilatları iqlim böhranı ilə mübarizənin vacibliyinin həmişəkindən daha aktual olduğunu bildiriblər.

Diqqətə çatdırılıb ki, Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransisk də Bakıda keçiriləcək COP29-un ümumi evimizin qorunmasına səmərəli töhfə verəcəyinə ümidvar olduğunu vurğulayıb.

Almaniyanın bir sıra aparıcı media orqanları Bakının evsahibliyi etdiyi COP29-u geniş işıqlandırıb. "Bild", "ZDF Heute", "Deutsche Welle", "Tagesschau", "Freitag", "Sueddeutsche" və digər media qurumları Bakıda keçiriləcək dünya iqlim konfransına geniş yer ayırıb.

Məqalə və reportajlarda COP29-un hazırda dünyada geniş münaqişə və böhranların, ciddi iqlim dəyişmələrinin yaşandığı dövrdə keçirilməsi xüsusi vurğulanıb. Dünyanın 200-ə yaxın ölkəsindən 50 mindən çox alim və siyasətçinin bir araya gələrək qlobal istiləşmənin 1,5 dərəcənin altında saxlanması, iqlim dəyişmələrinə qarşı daha səmərəli mübarizənin təşkili ilə bağlı ciddi müzakirələr aparacağı qeyd edilib.

BƏƏ-nin də nüfuzlu xəbər portallarında yayımlanan xəbərlərdə bildirilib ki, qlobal iqlim dəyişmələrinə qarşı daha səmərəli mübarizənin aparılması məqsədilə COP29-da iqlim maliyyələşməsi məsələsi xüsusilə diqqət mərkəzində saxlanılacaq. Eləcə də iqlim dəyişmələri və ətraf mühit məsələlərinin dövlət siyasətində mühüm yer tutan Azərbaycanın COP29-da əsas hədəfləri, həmçinin bu mötəbər tədbirdə dünya ictimaiyyətinin qarşısında duran yeni iqlim çağırışları və təhdidləri barədə ətraflı məlumat verilib.

***Hazırladı:***
***Elçin Cəfərov***